# Aydın İslam oğlu Abdullayev – 60 il!



SOCAR-ın Baş ofisinin Elm, texnika və nanotexnologiyalar departamentinin rəis müavini Aydın İslam oğlu Abdullayevin 60 yaşı tamam oldu.

O, 1963-cü il mart ayının 15-də Qazax rayonunun Aslanbəyli kəndində anadan olub. 1980-ci ildə orta məktəbi əla qiymətlərlə (tərifnamə ilə) bitirib, həmin ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Geoloji kəşfiyyat fakültəsinə daxil olmuş, dağ mühəndisi-geofizik ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə 1981-ci ildə Ümumittifaq Geofizika Elmi-Tədqiqat İnstitutunun Cənub bölməsində texnik vəzifəsi ilə başlamışdır. Müxtəlif illərdə həmin institutun ayrı-ayrı laboratoriya və partiyalarında böyük texnik, karotajçı, mühəndis, böyük mühəndis və dəstə rəisi vəzifələrində çalışmışdır. İnstitutda işlədiyi müddətdə neft və qaz quyularında radioaktiv karotaj işlərinin həyata keçirilməsində, yeni quyu-mədən geofiziki tədqiqat üsullarının işlənməsində və tədqiqində yaxından iştirak etmişdir. Azərbaycanda və keçmiş SSRİ-nin bir çox bölgələrində (Rusiya, Türkmənistan, Özbəkistan, Qazaxıstan və Gürcüstan) neft-qaz və digər faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatı sahəsində elmi-tədqiqat mövzu işlərinin çöl mərhələsinin yerinə yetirilməsinə rəhbərlik etmişdir.

2004-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti "Azneft" İstehsalat Birliyinin idarəetmə aparatının Axtarış, kəşfiyyat və geofiziki işlər üzrə geoloji şöbəsində geoloq vəzifəsində fəaliyyətini davam etdirmişdir. Daha sonra İstehsalat Birliyinin Geologiya, geofizika, neft və qaz ehtiyatlarının uçotu şöbəsində aparıcı geoloq, Neft və qaz yataqlarının işlənməsi şöbəsində mühəndis vəzifələrində işləmişdir.

2009-cu ildə "Azneft" İB-nin idarəetmə aparatında yeni yaradılmış Layların tədqiqi və təsir üsullarının tətbiqi şöbəsinə rəis müavini, sonra isə həmin şöbənin rəisi vəzifəsinə təyin edilmişdir. Şöbədə işlədiyi müddətdə neft-qaz yataqlarında lay təzyiqinin sabit saxlanması və layların nefveriminin artırılması üçün süni təsir üsullarının tətbiqini, bu istiqamətdə kompleks tədbirlərin işlənib hazırlanmasını və həyata keçirilməsini təşkil etmişdir.

2012-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Baş ofisində "Nanotexnologiyalar" Departamentinin Nanotexnologiyaların idarə edilməsi şöbəsinin rəisi, 2015-ci ildə isə departamentin rəis müavini strateji rəhbər vəzifəsinə yüksəlmişdir. Hazırda SOCAR-ın Baş ofisində Elm, texnika və nanotexnologiyalar departamentinin rəis müavini vəzifəsində fəaliyyət göstərir. Həmin vəzifədə çalışaraq neft-qaz sənayesində innovativ texnologiyaların işlənməsi, tədqiqi, tətbiqi və intellektual məhsulun xaricə inteqrasiyası sahəsində departamentin qazandığı uğurlarda bilavasitə yaxından iştirak edir. Onun rəhbərliyi və iştirakı ilə işlənmənin səmərəliyinin artırılması və neftvermə əmsalının yüksəldilməsi istiqamətində nanotexnologiyalar işlənib hazırlanır və istehsalata uğurla tətbiq olunur. Bu sahədə Almaniya, Rusiya, İtaliya, İran, Fransa, Kanada və Türkiyənin müvafiq elmi mərkəzləri və şirkətləri ilə imzalanmış Anlaşma Memorandumları çərçivəsində əməkdaşlıq edilir.

A. Abdullayevin apardığı geniş spektrli elmi-tədqiqat işlərinin nəticələri ayrı-ayrı elmi jurnallarda, o cümlədən xarici nəşrlərdə çap olunan 30-dan çox məqalə və tezislərdə öz əksini tapmışdır. Neft-qaz sahəsində innovativ texnologiyalar üzrə həmmüəllifi olduğu 3 ixtiraya patent alınmışdır. O, dəfələrlə beynəlxalq və Respublika səviyyəli konfrans, seminar və sərgilərdə fəal iştirak etmişdir. Azərbaycan Neftçi Geoloqlar Cəmiyyətinin, Avropa Yer Elmləri Alimləri və Mühəndisləri Assosiasiyasının Azərbaycan bölməsinin üzvüdür.

Azərbaycan Respublikasında neft sənayesinin inkişaf etdirilməsində xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə A.Abdullayev 2016-cı ildə SOCAR-ın Fəxri Fərmanına layiq görülmüş, 2017-ci ildə Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Mənalı və şərəfli ömür yolu keçmiş, həmkarları, dostları və onu tanıyanlar arasında böyük hörmət qazanmış Aydın müəllimi əlamətdar yubiley münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və yeni-yeni nailiyyətlər arzulayırıq.

**Elm, texnika və nanotexnologiyalar departamentinin kollektivi**